Yeni Azərbaycan.- 2022.- 1 iyun 7

MÜŞFİQƏ

# Sənətkarlar ailəsində göz açan "Qaraca çoban"

*Hərzə-mərzə söyləmə itim yağı,*
*Mən kimsənin boyunduruğuna girmərəm.*
*Gələcəyin varsa, görəcəyin də var.*





Qaraca çoban sapandına iri-iri daşlar qoydu, atdı. Birini atanda yağının ikisini, üçünü yıxdı. İkisini atanda üçünü, dördünü yıxdı. Yağıların canına vəlvələ düşdü. Çobanın daşı tükəndi, qoyun, keçi deməz, sapandına qoyar, atar, yağıların dördün, beşin bir yerə yıxar. Gen dünya yağının başına dar oldu.

O, çoxlarımızın hafizəsinə "Dədə Qorqud" filmindəki Qaraca çoban personajı kimi yazılmışdı. Öz mərdliyi, cəsurluğu, sədaqəti ilə seçilən, Oğuz elinə düşmənlər hücum edən zaman yurdunun müdafiəsinə qalxan, düşmənin hərbə-zorbasından qorxmayan, onların təklif etdiyi var-dövlətdən, bəylikdən imtina edən Qaraca çoban obrazının mahir ifaçısı Elçin Məmmədovdan danışacağıq.

Bu günlərdə Azərbaycan Teatr Xadimləri İttifaqında görkəmli teatr rəssamı, əməkdar incəsənət xadimi, mərhum aktyor Elçin Məmmədovun 75 illik yubileyi qeyd olunub. Elçin Məmmədov 29 may 1946-cı ildə Azərbaycanın iki böyük sənətkarının - rejissor Mehdi Məmmədov və Xalq artisti Barat Şəkinskayanın ailəsində dünyaya gəlib.

Valideynləri sənət adamı idilər. Odur ki, səhər saat 10-da teatra gedər, günorta evə gəlib yemək yeyər, dincələr, axşamlar isə tamaşaları olduğu üçün yenidən teatra qayıdardılar. Ona görə də Elçini uşaqlıqdan özündən 14 yaş böyük bacısı Solmaz böyüdüb. 11-ci sinifi bitirdikdən sonra isə Azərbaycan Dövlət İncəsənət



İnstitutunun Rəssamlıq fakültəsinə daxil olur.

Uşaqlıq dostu Azərpaşa Nemətovun Gənc Tamaşaçılar Teatrında rus dilində quruluş verdiyi "Mənim qardaşım klarnetdə çalır" tamaşasının rəssamı olub və bu onun professional səhnədəki ilk işi idi. Sonralar isə daha çox atası ilə birlikdə çalışıb. Bakıda fəaliyyət göstərən bütün teatrlarda, eyni zamanda, Moskva, Arxangelsk, Serebrovskidə də 100-dən çox tamaşada rəssamlıq edib. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının baş rəssamı olub. Mehdi Məmmədovun quruluş verdiyi "İblis" tamaşasına görə 1984-cü ildə Azərbaycan Dövlət Mükafatı laureatına, 22 may 1991-ci ildə Əməkdar incəsənət xadimi fəxri adına və 1999, 2001-ci illərdə Azərbaycan Teatr Xadimləri İttifaqının "Qızıl Dərviş" mükafatına layiq görülüb.

Bundan başqa, rəssam Akademik Milli Dram Teatrında M.F.Axundovun "Xırs quldurbasan", C.Məmmədquluzadənin "Dəli yığıncağı", H.Cavidin "İblis", M.Qorkinin "Meşşanlar", S.Vurğunun "İnsan", V.Şekspirin "Hamlet"; Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında C.Məmmədquluzadənin "Danabaş kəndinin məktəbi", N.Nərimanovun "Şamdan bəy", Anarın "Keçən ilin son gecəsi", R.Vaqnerin "Salam, Hotsi"; Azərbaycan Dövlət Rus Dram Teatrında M.Qorkinin "Həyatın dibində", R.Durkonun "Mənim məhəbbətim Elektra", H.Andersenin "Qar kraliçası", H.Cavidin "Şeyx Sənan", M.Şatrovun "Amansız oyunlar" və sair tamaşaların rəssamı olub.

Azərbaycan kinosu tarixində aktyor kimi maraqlı obrazlara imza atıb. "Yeddi oğul istərəm"də Mirpaşa, "Dədə Qorqud" filmində Qaraca çoban kimi yaddaqalan obrazlar canlandırıb.

Taleyin oyununa bax ki, Elçin Məmmədovun rəssam kimi quruluş verdiyi son tamaşası da Azərpaşa Nemətovla olur. Ömür vəfa etsəydi, "Hamlet" tamaşasında rəssam işlərini sona yetirəcəkdi. Ancaq qismət olmur. Son işi yarımçıq qalır. 2001-ci il fevralın 18-də Azərbaycan incəsənətinə böyük itki üz verir. Rəssam, aktyor Elçin Məmmədov ömrünün 55-ci baharında dünyasını dəyişir.